UOT 32:34
https://doi.org/10.30546/3006-0346.2025.3.87.562

# MİLLİ TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ HÜQUQİ REJİMLƏRİN-FÖVQƏLADƏ HAL, XÜSUSİ KARANTİN, ANTİTERROR HALLARININ İNZİBATİ HÜQUQLA TƏNZİMLƏNMƏSİ

**SEVDA ZAMANOVA**
*ƏN Penitensiar Xidmətin sabiq əməkdaşı,*
*ədliyyə polkovnik-leytenantı*
*DİN DQ Hərbi İnstitutunun Sosial-iqtisadi fənlər*
*kafedrasının müəllimi, hüquqşünas*
*E-mail: zamanli.zuleyxa2004@icloud.com*

## Giriş

Müasir hüquqi dövlətlərin strukturunda milli təhlükəsizliyin təmin olunması yalnız hərbi və texniki mexanizmlərlə deyil, həm də hüquqi rejimlər vasitəsilə həyata keçirilir. Xüsusilə fövqəladə vəziyyət, xüsusi karantin və antiterror rejimləri dövlətin konstitusion sabitliyinin qorunmasında və cəmiyyətin fövqəladə təhdidlərə qarşı yönləndirilməsində mühüm rol oynayır. Bu rejimlərin tətbiqi zamanı dövlətin həyata keçirdiyi hüquqi tədbirlərlə vətəndaşların fundamental hüquq və azadlıqları arasında tarazlıq qorunmalı, ölçülülük və hüquqi legitimlik prinsipləri əsas götürülməlidir.

Azərbaycan Respublikası da daxil olmaqla, bir sıra ölkələrdə COVID-19 pandemiyası, terror təhlükələri və digər böhran vəziyyətləri bu rejimlərin praktik tətbiqini gündəmə gətirmiş və yeni hüquqi tənzimləmələrə zərurət yaratmışdır. Bu məqalədə Azərbaycan, Türkiyə və Rusiya təcrübələri müqayisəli şəkildə araşdırılmış, fövqəladə halların hüquqi rejimləri inzibati hüquq baxımından təhlil olunmuşdur.

## Əsas hissə

Azərbaycan Respublikasında fövqəladə vəziyyət və xüsusi karantin rejimlərinin tətbiqi hər zaman dövlətin kritik təhlükəsizlik çağırışlarına cavab vermək məqsədi daşıyıb. Bu rejimlər hüquqi baxımdan konstitusiya və qanunvericilik bazasında öz əksini tapır. Milli Məclis tərəfindən təsdiq edilən qərarlar icra hakimiyyətinə ölçülülük və qanunilik prinsiplərinə riayət etməklə vətəndaşların əsas hüquqlarının müvəqqəti məhdudlaşdırılmasına imkan verir. Əsas məqsəd ictimai asayişin və dövlətin sabitliyinin qorunmasıdır. Xüsusi karantin rejimində Nazirlər Kabineti tərəfindən qəbul edilən qərarlar insan hüquqları ilə bağlı beynəlxalq öhdəliklər çərçivəsində tətbiq olunur. Bu müddətdə sərnişin daşımalarının məhdudlaşdırılması və inzibati sərhədlərin bağlanması kimi zəruri tədbirlər həyata keçirilir. Əhalinin tibbi yardım almaq imkanlarını təmin etmək məqsədilə səhiyyə infrastrukturu gücləndirilir. Fövqəladə hal elan edilmədən xüsusi karantin tətbiqi bu baxımdan çevik hüquqi mexanizm kimi qiymətləndirilir. Bu yanaşma həm idarəetmədə operativliyi, həm də məhkəmə nəzarətinin davamlılığını təmin edir. “Fövqəladə vəziyyət rejimi tətbiq olunduqda Prezident fərmanları qanun qüvvəsinə malik olur. Belə fərmanlar rəsmi nəşrlərdə dərc edildikdən sonra təsdiq üçün müvafiq orqana təqdim edilir. Bu prosedur demokratik nəzarət mexanizminin işləməsi baxımından vacib hesab edilir. Hüquq-mühafizə orqanlarının səlahiyyət dairəsi məhdudlaşdırılmış zaman diqqətli şəkildə tənzimlənir” [6, s.10].

Dövlət Təhlükəsizlik Xidməti inzibati qərarlar əsasında antiterror tədbirlərini həyata keçirir. Bu tədbirlər zamanı şəffaflıq və hesabatlılıq prinsiplərinə riayət olunmalıdır. Əks halda vətəndaş etimadı sarsıla bilər. İnzibati nəzarət formaları hüququn aliliyini təmin edəcək şəkildə planlaşdırılır. Komendant saatı və hərəkət məhdudiyyətləri məhkəmə qərarı ilə təsdiqləndikdən sonra icra edilir. Bu qərarlar məhkəmə nəzarətinə tabe olmaqla hüquq pozuntularının qarşısını alır. Hər bir vətəndaşın qanuni müdafiə hüququ təmin edilməlidir. Uğurlu hüquqi rejim balansın qorunmasına xidmət etməlidir. Bu baxımdan məhkəmələrə müraciət hüququ vacib rol oynayır. Birləşmiş Millətlər Təşkilatının prinsipləri Azərbaycan qanunvericiliyinə inteqrasiya edilir. Beynəlxalq müqavilələr daxilində dövlət öhdəliklərini yerinə yetirmək əsas şərtdir. Gərgin vəziyyətlərdə hüquqi prosedurların sadələşdirilməsi zəruridir. Lakin bu sadələşmə vətəndaşların hüquqlarının təminatı şərti ilə baş verməlidir. Qanun layihələrinin təcili icrası zamanı peşəkar hüquqşünas məsləhətləri nəzərə alınır.

Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) president hüququnda da görünür ki, istisna hal elan olunması ilə bağlı dövlətlərə geniş diskresiya səlahiyyəti tanınsa da, hüquq və azadlıqların məhdudlaşdırılması məsələsində bu səlahiyyətin tətbiqi dar çərçivədə qiymətləndirilir. Xüsusilə də, qəbul ediləcək tədbirlərin “mövcud vəziyyətin mütləq şəkil-

də tələb etdiyi səviyyədə" – başqa sözlə, "mövcud vəziyyətin mütləq şəkildə tələb etdiyi səviyyədə" olması ilə bağlı hesabatlar hazırlanır və hüquqi presedentlər yaradılır. "AİHM bir çox dövləti istisna hallarda qəbul etdikləri tədbirlərə və ya bu tədbirlərin həyata keçirilmə formasına görə məsuliyyətə cəlb edir"[4, s.44].

Türkiyədə, imzalanmış beynəlxalq müqavilələrə uyğun şəkildə hazırlanmış istisna vəziyyəti haqqında qanunlarda hansı tədbirlərin tətbiq oluna biləcəyi geniş və detallı şəkildə göstərilmişdir.Maddi, əmlak və əmək öhdəliklərinin sərhədləri də bu qanunlarda dəqiq müəyyən olunmuşdur. Təbii fəlakətlər, təhlükəli epidemiya xəstəlikləri, ağır iqtisadi böhran və zorakılıq aktları səbəbilə elan ediləcək fövqəladə vəziyyətlərdə onlarla inzibati tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Beləliklə, olduqca geniş spektrə yayılmış məhdudlaşdırma səlahiyyəti ilə icra orqanına mühüm hüquqi imkan verilmişdir. İcra hakimiyyəti bu qanunlarda qeyd olunmuş tədbirlərin detalları və ya hüquqi boşluqların doldurulması məqsədilə qanun qüvvəsində olan fərmanlar vasitəsilə demək olar ki, istənilən tədbiri həyata keçirə biləcək səlahiyyətə sahib olur və nəticədə azadlıq-təhlükəsizlik balansı təhlükəsizlik lehinə pozulur.

"Bu dövrlərdə fərdi hüquqlar, sosial-iqtisadi hüquqlar və siyasi hüquqlar üzərində ciddi məhdudiyyətlər tətbiq oluna bilər. Xüsusilə də fiziki məhdudiyyətli şəxslər, uşaqlar, yaşlılar və qaçqınlar kimi xüsusi kateqoriyalara aid qruplar bu məhdudiyyətlərdən daha dərindən təsirlənə bilərlər" [5, s.77].

Bəzi hallarda hüquqi mübarizələr illərlə davam edir. İstisna halları təbiəti etibarilə bir böhran vəziyyəti kimi qiymətləndirmək olar və bu da icra orqanında sarsıntılara səbəb olur. Həmin böhran vəziyyətinin minimum itkilərlə aradan qaldırılması dövlətin əsas vəzifələrindən biri kimi qarşıya qoyulur.

Nəticə etibarilə, fövqəladə hallarda fərmanlarla Konstitusiyaya zidd normativ aktların qəbul edilməsi və ya Konstitusiyaya uyğun olsa belə hüquqa zidd icra üsulları nəticəsində meydana gələn qanunsuzluqlar ciddi sayda hüquqi iddia və məhkəmə yükünün yaranmasına səbəb olur.

Bu səbəbdən, məhkəmə sisteminin artıq yüklənməsinin qarşısını almaq üçün, ilk növbədə, icra orqanlarının vətəndaşları bu hüquq pozuntularından qoruması, baş vermiş hadisələrlə bağlı araşdırmalar apararaq xətaları düzəltməsi, məsul şəxsləri cəzalandırması və hüququ pozulmuş şəxsləri maddi və mənəvi baxımdan kompensasiya etməsi zəruridir.

COVID-19 pandemiyası dövründə Azərbaycan Respublikasında fövqəladə hal elan olunmadan, Nazirlər Kabinetinin qərarları əsasında xüsusi karantin rejimi tətbiq edilmişdir. Hüquqi baza olaraq "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanunu və müvafiq prezident sərəncamları imzalanmışdır.

Karqo daşımaları istisna olmaqla, 2020-ci ilin 14 martında Azərbaycan ilə Türkiyə arasında hava və quru yoluyla qarşılıqlı sərnişin daşımaları müvəqqəti olaraq dayandırılmışdır. 17 mart 2020-ci il tarixindən etibarən Azərbaycan–Gürcüstan və Azərbaycan–Rusiya sərhəd keçid məntəqələrində yük daşımaları davam etsə də, sərnişin, minik avtomobili və avtobus keçidlərinə müvəqqəti məhdudiyyət qoyulmuşdur. "Eyni rejim Azərbaycan–İran sərhədində də tətbiq edilmiş, burada idxal olunan yüklər sərhəd keçid məntəqəsində İran dövlət nömrə nişanlı nəqliyyat vasitələrindən Azərbaycan nömrə nişanlı avtomobillərə daşınaraq təhvil verilmişdir. Bu prosedur Naxçıvan–İran sərhədində də eyni şəkildə həyata keçirilmişdir" [2, s.10].

COVID-19 pandemiyası dövründə Azərbaycan Respublikası yalnız səhiyyə sahəsində deyil, eyni zamanda gömrük siyasəti və xarici ticarət əməliyyatları ilə bağlı da hüquqi və inzibati tədbirlər həyata keçirmişdir. Bu tədbirlərin əsas məqsədi həm daxili tələbatın təmin olunması, həm də beynəlxalq logistika sabitliyinin qorunması olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 mart 2020-ci il tarixli, 114 nömrəli Qərarı ilə "Azərbaycan Respublikasının gömrük tariflərinin statistik təsnifatı (GTİP), idxal gömrük vergi dərəcələri və ixrac gömrük vergi dərəcələri" ilə bağlı dəyişikliklər edilərək, tibbi maska istehsalı üçün zəruri olan xammalın (GTİP: 5603.12.10.00 və 5603.13.10.00) idxalı 2022-ci il 31 dekabr tarixinədək gömrük vergisindən azad edilmişdir.

"Daha sonra, 22 may 2020-ci il tarixli, 188 nömrəli qərarla, tibbi əlcək (GTİP: 4015 19 000 1), tibbi maska və respiratorlar (GTİP: 6307 90 980 1) üzrə 5 mart 2020-ci ildən tətbiq olunan gömrük vergi güzəştlərinin müddəti 1 iyul 2020-ci ilədək uzadılmışdır" [3, s.9].

Eyni zamanda, Nazirlər Kabinetinin 19 iyun 2020-ci il tarixli, 207 nömrəli qərarı ilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 avqust

2020-ciilədək uzadılmış, Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərləri və Abşeron rayonunda isə 21 iyun – 5 iyul 2020-ci il tarixləri arasında daha sərt əlavə tədbirlərin tətbiqi qərara alınmışdır. 424 saylı fərmanın 4-cü maddəsində, fövqəladə hal bölgəsində xidmət edən vəzifəli şəxslərin şəxsi hüquqlarına mətbuat vasitəsilə hücum edilməsi halında bu şəxslərin ala biləcəyi mənəvi təzminatın miqdarı müəyyən olunmuşdur. Müvafiq maddəyə əsasən:

"Əgər yayımlanan material dövri nəşrlərlə dərc olunarsa və nəşr dövriliyi bir aydan azdırsa, o zaman əvvəlki ayın orta satış miqdarına, əgər nəşr aylıq və ya daha uzunmüddətlidirsə, o zaman əvvəlki ayın faktiki satış miqdarına əsaslanaraq ümumi satış dəyəri əsasında təzminat hesablanır. Əgər nəşr dövri deyilsə və ya yeni fəaliyyətə başlayan dövri nəşrlə yayılmışdırsa, bu halda ölkədə ən yüksək tirajlı gündəlik qəzetin əvvəlki ay üzrə orta satış dəyərinin 90%-dən az olmayacaq şəkildə təzminat hesablanır [10, s.88]."

Antiterror rejimi milli təhlükəsizliyin qorunması məqsədilə dövlət tərəfindən tətbiq olunan, fərdi hüquq və azadlıqların müəyyən miqyasda məhdudlaşdırılmasını nəzərdə tutan hüquqi və inzibati tədbirlər toplusudur. Bu rejim, əsasən terror təhlükəsinin real olduğu və ya terror aktının baş verdiyi hallarda qüvvəyə minir və Konstitusiya ilə qorunan hüquqların balanslaşdırılmış şəkildə tətbiqini tələb edir. "Hüquqi baxımdan, antiterror rejimi fövqəladə haldan fərqli olaraq, lokal və ya sektorial şəkildə tətbiq oluna bilər, lakin bəzi hallarda milli səviyyədə də icra oluna bilər" [1, s.20].

Antiterror rejimi beynəlxalq səviyyədə qəbul olunmuş hüquqi prinsiplərə və dövlətin daxili qaydalarına əsaslanaraq formalaşır. Məsələn, BMT-nin Terrorizmin Maliyyələşdirilməsinə qarşı Konvensiyası ölkələrə terrorçuluğun maliyyələşdirilməsini araşdırmaq, məhdudlaşdırmaq və müvafiq cinayət məsuliyyətini tətbiq etmək öhdəliyi qoyur. Avropa İttifaqının 2017-ci ildə qəbul etdiyi "Antiterror Tədqiqatları və Əməkdaşlıq" Direktivində isə üzv-ölkələr arasında məlumat mübadiləsi və təcili müdaxilə prosedurlarının vahid standartlarının yaradılması nəzərdə tutulur.

Antiterror rejimində kəşfiyyat və təhqiqat orqanlarının—məsələn, gizli əməliyyat vahidlərinin—səlahiyyətləri genişlənə bilər; bu, telefon dinləmələri, elektron poçt və internet trafikinin mühafizəsi altında aparılmasına imkan verir. Belə tədbirlər xüsusi icazə əsasında həyata keçirilməli və sonradan məhkəmə nəzarətindən keçməlidir. Müstəsna hallarda kütləvi məlumatların saxlanılması və profilləşdirmə prosedurları tətbiq olunur, lakin bu da şəxsi həyatı qoruyan qanunlarla balanslaşdırılmalıdır.

Texniki baxımdan, antiterror rejimi çərçivəsində sərhəd-keçid məntəqələrində sərnişinlərin və yük maşınlarının yoxlanılması prosedurları güclənir, biometrik məlumat bazalarından istifadə genişlənir. Daxili nəqliyyat sistemlərində, xüsusilə metro, hava limanları və böyük stadionlarda yerləşdirilən obyektiv müşahidə kameraları real vaxt rejimində təhlükənin aşkarlanması üçün şəbəkəyə qoşulur.

"Təhlükəsizlik strukturları antiterror əməliyyatlarında mülki əhali ilə mümkün toqquşmaların qarşısını almaq məqsədilə xüsusi prinsiplər—məsələn, "mümkün qədər az itki" və "təcili tibbi yardım" təminatı—üzərində işləyirlər. Bu, həm ordunun, həm də polis qüvvələrinin yüksək hazırlıqlı bölmələrinin birgə fəaliyyətini tələb edir" [7, s.33].

Antiterror rejimlərinin uzunmüddətli tətbiqi nəticəsində yaranan ictimai narahatlıq, sosial partlayış riski və insan hüquqlarının pozulması hallarının qarşısını almaq üçün ombudsmanın müstəqil yoxlama mexanizmi və parlament komissiyaları fəaliyyət göstərir. Bir çox ölkələrdə vətəndaş cəmiyyəti nümayəndələrinin monitorinq qrupları, beynəlxalq hüquq müdafiə orqanları ilə əməkdaşlıq edərək, tətbiq edilən tədbirlərin qanuniliyini daim qiymətləndirirlər.

Nəticə etibarilə, uğurlu antiterror rejimi yalnız sərt inzibati tədbirlərlə deyil, həm də şəffaflıq, hesabatlılıq və vətəndaşların hüquqi müdafiə mexanizmlərinin işləkliyi ilə xarakterizə olunur. İnsan hüquqlarını qoruyan beynəlxalq konvensiyalarla inteqrasiya olunmuş, ehtiyatlı və ölçülülük prinsipinə sadiq qalınan bir yanaşma sülh içində təhlükəsizliyi təmin etməyə imkan verir.

Azərbaycan Respublikasında antiterror rejimi "Terrorizmə qarşı mübarizə haqqında" 18 iyun 1999-cu il tarixli Qanun çərçivəsində formalaşır. Bu qanuna əsasən, terror aktlarının qarşısının alınması məqsədilə Dövlət Təhlükəsizlik Xidməti xüsusi istintaq və əməliyyat tədbirləri həyata keçirir, yüksək risk qrupu hesab olunan şəxslərin hərəkət sərbəstliyinə məhdudiyyətlər qoyulur və onların maliyyə hərəkətləri daimi monitorinqə götürülür. Fövqəladə hallarda, habelə terror təhdidi artdıqda Prezident sərəncamları ilə DİN, DTX və FHN-ə xüsusi səla-

hiyyətlər verilərək mülki şəxslərin saxlanılması, sorğu-sual edilməsi və təkrar yoxlanılması kimi tədbirlər qanuni əsasda genişləndirilir.

Kibertəhlükəsizlik sahəsində də xüsusi normativ aktlar (Məlumat Təhlükəsizliyi Qanunu, İnzibati Xətalar Məcəlləsinə edilmiş əlavələr) terrorizmin maliyyələşdirilməsi və kiberhücumların qarşısının alınmasına yönəlmiş əməkdaşlığı təmin edir. “Qanuna görə, şübhəli onlayn fəaliyyətlərə dərhal müdaxilə edilə və kibercinayətlərə görə məsuliyyətə cəlb olunmuş şəxslərin nəzarəti dövlət orqanlarının tabeliyində olan xüsusi mərkəzlər tərəfindən aparılır” [8, s.18].

2016-cı ildən sonra qəbul edilmiş dövlət proqramları antiterror təlim-kursları, kütləvi qırğın silahlarının yayılmasının qarşısını alma, sərhəd-keçid məntəqələrində biometrik yoxlamalar və beynəlxalq təşkilatlarla birgə əməliyyat təcrübələrinin artırılmasını nəzərdə tutur. Xüsusi karantin və məcburi köçürmə hallarının terrorçuluqla əlaqəsi şübhəli qrupların dərhal məskunlaşma yerlərinin müəyyənləşdirilməsinə gətirib çıxarır.

Beləliklə, antiterror rejimi və müharibə zamanı komendant saatı Azərbaycanda milli təhlükəsizlik sisteminin ayrılmaz hissəsi kimi institutlaşdırılmış, həm qanunvericilik, həm də tətbiq mexanizmləri ilə qoruyucu və preventiv funksiyanı yerinə yetirir.

## Nəticə

Milli təhlükəsizlik sahəsində fövqəladə, xüsusi karantin və antiterror rejimlərinin inzibati hüquqi tənzimlənməsi, müasir dövrdə dövlət idarəçiliyinin ən mühüm və zəruri sahələrindən birinə çevrilmişdir. Təhlükə və böhran şəraitində fərdi hüquqların qorunması ilə ictimai təhlükəsizliyin təmin olunması arasında balansın yaradılması, hüquqi dövlətin əsas funksiyalarından biri kimi qiymətləndirilir.

Aparılan təhlillər göstərdi ki, Azərbaycan Respublikasında bu rejimlərin hüquqi bazası mövcuddur və əsasən Konstitusiya, “Terrorizmə qarşı mübarizə haqqında” Qanun, “Fövqəladə vəziyyət haqqında” Qanun, “Sanitariya və epidemioloji salamatlıq haqqında” Qanun və digər normativ aktlarla tənzimlənir. Bununla belə, praktiki tətbiq sahəsində bəzi hallarda hüquqi qeyri-müəyyənliklər və inzibati səlahiyyətlərin sərhədlərinin dəqiq müəyyən edilməməsi müşahidə olunmaqdadır.

Sonda demək olar ki, milli təhlükəsizlik məqsədilə tətbiq edilən hüquqi rejimlərin idarəedilməsi yalnız inzibati tədbirlər deyil, həm də demokratik legitimlik, hüquqi müəyyənlik və effektiv nəzarət mexanizmləri ilə müşayiət olunmalıdır. Dövlət orqanlarının məsuliyyət çərçivəsində hərəkət etməsi, fövqəladə halların da hüquq çərçivəsində idarə olunması və vətəndaşların hüquqlarının qorunması müasir hüquq dövlətinin əsası kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Anayasa Mahkemesi. OHAL KHK’larının Anayasal Denetimi Üzerine Kararları. Ankara: Resmi Yayınlar Dairesi, 2018.*

*2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı №1122. Mövcuddur: https://constcourt.gov.az/az/decisionDocx/1122*

*3. Əliyev E. İnzibati hüquqda fövqəladə halların hüquqi tənzimi. Bakı: Hüquq və Dövlət Nəşriyyatı, 2021, 340 s.*

*4. Əliyeva, T. Xüsusi karantin rejimi və inzibati nəzarət mexanizmləri. Qafqaz Universiteti Hüquq Elmi Məcmuəsi, 2022, 5(1), s. 77–90.*

*5. Hüseynovn R. Pandemiya dövründə konstitusiya hüququ və fərdi azadlıqlar: Azərbaycan nümunəsi. Azərbaycan Hüquq Jurnalı, 2020, 3(2), s. 112–126.*

*6. Korkut, T. Olağanüstü hâl dönemlerinde yürütme organının yetki genişlemesi və denetim eksikliği. İstanbul Medipol Üniversitesi Hukuk Dergisi, 2021, 6(1), s. 45–63.*

*7. Salinas de Frias, A. M., Samuel, K., & White, N. D. (Ed.). Counter-terrorism: International law and practice. Oxford: Oxford University Press, 2012.*

*8. Tekin, A. Olağanüstü hâl rejimlerinde temel hak ve özgürlüklerin sınırlandırılması. Süleyman Demirel Üniversitesi Hukuk Fakültesi Dergisi, 2021, 11(2), s. 221–239.*

*9. Yıldız, M. Türkiye’de terörle mücadelede idari tedbirler: 15 Temmuz sonrası olağanüstü hâl uygulamaları. Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi, 2019, 68(1), s. 67–88.*

*10. Zyryanov, A., & Shalberkina, N. Emergency governance and legal certainty in the Russian Federation. Russian Law Journal, 2020, 8(4), s. 42–60. https://doi.org/10.17589/2309-8678-2020-8-4-42-60*


## XÜLASƏ


Bu tədqiqatda fövqəladə hal, xüsusi karantin rejimləri inzibati hüquq çərçivəsində təhlil olunur. Dövlətlərin konstitusiya ilə qorunan əsas hüquqları

hansı hallarda və hansı hüquqi mexanizmlərlə məhdudlaşdıra biləcəyi məsələsi Azərbaycan, Türkiyə və Rusiya təcrübələri əsasında müqayisəli şəkildə öyrənilmişdir. Xüsusilə COVID-19 pandemiyası dövründə qəbul edilən qərarlar və normativ aktlar konstitusion hüquqlar, hüquqi ölçülülük prinsipi və inzibati nəzarət mexanizmləri kontekstində qiymətləndirilmişdir. Tədqiqat nəticələri göstərir ki, fövqəladə vəziyyətlərdə qəbul olunan qərarlar demokratik prinsiplərlə tənzimlənmədikdə hüquq pozuntularına və ictimai etimadsızlığa səbəb ola bilər.

**Açar sözlər:** *fövqəladə hal, karantin rejimi, antiterror hüququ, inzibati hüquq, insan hüquqları, qanunilik, ölçülülük prinsipi, müqayisəli hüquq.*

## REGULATION OF LEGAL REGIMES IN THE FIELD OF NATIONAL SECURITY - STATE OF EMERGENCY, SPECIAL QUARANTINE, ANTI-TERRORISM CASES BY ADMINISTRATIVE LAW

**Sevda Zamanova**
***Former employee of the Penitentiary Service of the Supreme Council of the Republic of Azerbaijan, Lieutenant Colonel of Justice Teacher of the Department of Socio-Economic Sciences of the Military Institute of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan, lawyer***
***E-mail: zamanli.zuleyxa2004@icloud.com***

### SUMMARY

This study analyzes the state of emergency, special quarantine regimes within the framework of administrative law. The issue of when and by what legal mechanisms states can restrict fundamental rights protected by the constitution has been studied comparatively based on the experiences of Azerbaijan, Turkey and Russia. In particular, decisions and normative acts adopted during the COVID-19 pandemic have been evaluated in the context of constitutional rights, the principle of legal proportionality and administrative control mechanisms. The results of the study show that decisions made in emergency situations, if not regulated by democratic principles, can lead to violations of the law and public distrust.

**Keywords:** *state of emergency, quarantine regime, anti-terrorist law, administrative law, human rights, legality, principle of proportionality, comparative law.*

## РЕГУЛИРОВАНИЕ ПРАВОВЫХ РЕЖИМОВ В ОБЛАСТИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ - ЧРЕЗВЫЧАЙНОЕ ПОЛОЖЕНИЕ, СПЕЦИАЛЬНЫЙ КАРАНТИН, АНТИТЕРРОРИСТИЧЕСКИЕ ДЕЛА ПО АДМИНИСТРАТИВНОМУ ПРАВУ

**Севда Заманова**
***Бывший сотрудник Главной уголовно-исполнительной службы, подполковник юстиции Преподаватель кафедры социально-экономических наук Военного института МВД Азербайджанской Республики, юрист***
***E-mail: zamanli.zuleyxa2004@icloud.com***

### РЕЗЮМЕ

В данном исследовании анализируются чрезвычайное положение, особые карантинные режимы в рамках административного права. Вопрос о том, когда и какими правовыми механизмами государства могут ограничивать основные права, защищаемые конституцией, был изучен сравнительно на основе опыта Азербайджана, Турции и России. В частности, решения и нормативные акты, принятые во время пандемии COVID-19, были оценены в контексте конституционных прав, принципа правовой пропорциональности и механизмов административного контроля. Результаты исследования показывают, что решения, принимаемые в чрезвычайных ситуациях, если они не регулируются демократическими принципами, могут привести к нарушениям закона и недоверию общества.

**Ключевые слова:** *чрезвычайное положение, карантинный режим, антитеррористическое право, административное право, права человека, законность, принцип пропорциональности, сравнительное право.*